# Masallı İstisu sanatoriyası yolunuzu gözləyir

Son illər Lənkəranda, Masallıda, Şəkidə, Qubada, Qusarda, Qəbələdə, Xızıda, eləcə də ölkəmizin digər dilbər guşələrində istifadəyə verilmiş müalicə kurort zonaları Azərbaycanda turizmin daha da inkişafına təkan



vermişdir. Masallıda yerləşən İstisu sanatoriyası respublika əhalisinin ən çox istirahət etdiyi yerlərdəndir.

İstisu Masallı şəhərindən 13 kilometr aralıda, Talış dağlarının qoynunda, dəniz səviyyəsindən 1650 metr uca olan Dəmbalov dağının döşündə, Viləş çayının sahilində çıxan qaynar möcüzəli sudur. Yerin 90-250 kilometr dərinliyindən 60 dərəcədən yuxarı isti halda çıxan suyun tərkibində hidrogen sulfit, natrium-xlor, kalsium, maqnezium-hidrokarbonat və bir litrində otuz milliqram yod vardır.

1960-cı illərin əvvəllərində məşhur həkim-alim, şair, bəstəkar Mir Kazım Aslanlı-Sarəng elmi yolla sübut etmişdir ki, bu su ilə aşağıdakı xəstəlikləri müalicə etmək olar:

Revmatizm və onun fəsadları (artrit, poliartrit, oynaq ağrıları, artirozlar); dəri xəstəlikləri (pisarioz, germatitlər, neyrodermitlər, göbələk xəstəlikləri, ekzema); böyrək və sidik yolları xəstəlikləri (pielit, uretrit, piolonefrit, piolosistit); radikulitlər; prostatlar, hipertoniya (qan azlığı); qaraciyər və öd yolları; qadın xəstəlikləri; mədə-bağırsaq xəstəlikləri, travmatik zədələnmələr və s.

1998-ci ildən bura iş adamı, "İldırım" firmasının prezidenti Hacı İldırım Allahyarov tərəfindən özəlləşdirilərək "İstisu Fatmeyi-Zəhra şəfa sanatoriyası" adlandırılıb. Elə həmin vaxtlardan da burada böyük bərpa-quruculuq işləri görülməyə başlanılıb.



İstisu sanatoriyasında müalicəvi vannalar, istirahət üçün hotellər, 160 yerlik mehmanxana və digər sosial obyektlər vardır.

İstirahət edənlər Viləş çayındakı çimərlikdən, dəryaçada gəmi ilə gəzintidən, idman meydançasından, atla gəzintidən, eləcə də Lerik, Yardımlı, Astara və Lənkəranın gəzməli yerlərinə turist marşrutlarından istifadə edə bilərlər. Masallı İstisu sanatoriyasının baş həkimi, Rayon Əlillər Cəmiyyətinin sədri Tofiq Şahbazov müalicəyə gələn insanları daim diqqət mərkəzində saxlayır, sutka ərzində xəstələrə qayğı göstərir. Müalicəyə gələn insanlar təcrübəli həkimin dəyərli məsləhətlərinə qulaq asmaqla burada yaradılmış şəraitdən razılıqlarını bildirirlər.

Şəfa sanatoriyasına gələn qonaqlar yenidən bu məkana üz tutmaqla təbiətin gözəlliklərini seyr etməkdən yorulmurlar. Odur ki, vaxtdan səmərəli istifadə etməklə sıx meşəliklərlə əhatə olunmuş bu gözəl məkanda dincəlmək ümidilə hər kəsə sağlamlıq arzulayırıq.

**Rauf İLYASOĞLU.**

re

sa vir ye işi ma Şa m Ba yı ye na da m la le M ə m m ta